# Diasporlarımızın fəaliyyəti

2024-cü il

- **Qurbanov, Füzuli.** Azərbaycanlıların həmrəyliyi: I məqalə / F. Qurbanov // Xalq qəzeti. - 2024.- 30 dekabr. - № 290. - S. 8.

- **Qafarova, Sahibə.** Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlıların güvənc yeridir / S. Qafarova // Milli Məclis. - 2024. - № 11/12. - S. 22-27.

- **Mirzəbəyli, İttifaq.** Həmrəyliyimizin möhtəşəm zirvələri / İ. Mirzəbəyli // Xalq qəzeti. - 2024.- 30 dekabr. - № 290. - S. 10.

- **Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin müraciəti //** Azərbaycan. - 2024.- 30 dekabr. - № 290. - S. 1,7.

- **Əliyeva, İradə.** Həmrəyliyimiz birliyimizdir: Prezident İlham Əliyevin diaspor siyasəti dünya azərbaycanlılarının təşkilatlanmasını gücləndirib / İ. Əliyeva // Azərbaycan. - 2024.- 30 dekabr. - № 290. - S. 16.

- **İbrahimova, Aygün.** Azərbaycan diasporu beynəlxalq münasibətlərin möhkəmlənməsində əsas faktordur / A. İbrahimova // Respublika. - 2024.- 30 dekabr. - № 290. - S. 14.

- **Hüseynov, Rəfael.** Ulu öndərin bütöv millət arzusu / R. Hüseynov // Xalq qəzeti. - 2024.- 30 dekabr. - № 290. - S. 6-7.

- **Vəliyeva, Mehriban.** Həmrəylik Günü ideya ilə əməlin vəhdətindən doğan şərəfli tarixdir / M. Vəliyeva // Respublika. - 2024.- 30 dekabr. - № 290. - S. 14.

- **Sarsılmaz həmrəyliyin tarixi və mənəvi təsdiqi:** [31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür] // Respublika. - 2024.- 30 dekabr. - № 290. - S. 9.

- **Kamal, Mustafa.** Bizi birləşdirən, gücləndirən azərbaycançılıq ideyasıdır: [31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür] / M. Kamal // Respublika. - 2024.- 30 dekabr. - № 290. - S. 6.

- **Məmmədov, Xaliq.** Milli birliyimiz, azərbaycançılıq məfkurəsi müstəqilliyimizin qayəsidir : 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür / X. Məmmədov // Respublika. - 2024.- 29 dekabr. - № 289. - S. 15.

- **Azərbaycan diasporu daim xalqımızın yanındadır:** [Almaniya Azərbaycanlıları Alyansı İdarə Heyətinin üzvü Yaşar Musayevin müsahibəsi] // Xalq qəzeti. - 2024.- 29 dekabr. - № 289. - S. 10.

- **Azadi, Sevinc.** Birliyimizin simvolu: Bu tarix dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi Vətənlə döyünən, milli birlik amalı ilə yaşayan çoxmilyonlu Azərbaycan millətinin birliyinin, bütövlüyünün reallaşdığı gündür: [31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür] / S. Azadi // İki sahil. - 2024.- 29 dekabr. - № 242. - S. 6.

- **İsmayıl.** Həmrəyliyimiz daha da güclənəcək: Azərbaycan 2025-ci ildə daha böyük uğurlara imza atacaq: [31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür] / İsmayıl // Şərq. - 2024.- 29 dekabr. - № 241. - S. 6.

- **Bayramova, Zümrüd.** Həmrəylik və milli birliyimiz!: Prezident İlham Əliyev diaspor quruculuğu işinə əsaslı töhfələr verib: [31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür] / Z. Bayramova // Səs. - 2024.- 28 dekabr. - № 241. - S. 2.

- **Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər:** Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir: [Milli Məclisin deputatı Vüqar Rəhimzadənin fikirləri] // İki sahil.- 2024.- 28 dekabr.- № 241.- S. 2.

- **Orucova, Nigar.** 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü: Milli birlik və bərabərliyin simvolu / N. Orucova // İki sahil. - 2024.- 27 dekabr. - № 240. - S. 5.

- **Quliyev, Elxan.** Milli birliyin və bərabərliyin simvolu: [31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür] / E. Quliyev // 525-ci qəzet. - 2024.- 27 dekabr. - № 239. - S. 7.

- **Qocayev, İsmayıl.** ABŞ-də Azərbaycan diasporu fəallaşır: mühüm məsələlərdən biri fərqli diaspor qurumlarının ayrılıqda deyil, birgə fəaliyyəti, həmrəylik nümayiş etdirməsidir / İ. Qocayev // Şərq. - 2024.- 26 dekabr. - № 238. - S. 6.

- **İsmayılqızı, Xuraman.** Bizim xarici ölkələrdə yaşayan böyük ailəmiz var!: Naxçıvandan başlanan «Sərhəd hərəkatı» ilə artıq vahid gücə çevrilən diaspor təşkilatlarımız Azərbaycanı ölkəmizdən kənarda təmsil edən diplomatik nümayəndəliyimizdir / X. İsmayılqızı // İki sahil. - 2024.- 26 dekabr. - № 239. - S. 5.

- **Cavid.** Azərbaycan bütün dünya azərbaycanlılarının güvənc yeridir: [31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür] / Cavid // Xalq Cəbhəsi. - 2024.- 26 deklabr. - № 46. - S. 9.

- **Möhbalıyev, Mahmud.** Həmrəylik azərbaycançılıqdır! / M. Möhbalıyev, E. İmanov // Azərbaycan ordusu. - 2024.- 11 dekabr. - № 93. - S. 6.

- **Mirzəbəyli, Elçin.** 33 il əvvəl Naxçıvan MR Ali Məclisi: Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında qərar qəbul etdi / E. Mirzəbəyli // Xalq qəzeti. - 2024.- 15 dekabr. - № 277. - S. 1-2.

- **Bayramova, Yeganə.** Diasporumuzun inkişafı naminə...: mühüm işlər görülməkdədir / Y. Bayramova // Yeni Azərbaycan. - 2024.- 12 dekabr. - № 229. - S. 8.

- **Ordahallı, Vidadi.** Azərbaycanın diaspor qurumlarından lobbiçiliyə keçid... / V. Ordahallı // Bakı Xəbər. - 2024.- 5-7 oktyabr. - № 180. - S. 8.

- **Rzayeva, Məlahət.** Diaspora Azərbaycanın səsi, görən gözü olmalıdır: Avropada, ABŞ-də ictimaiyyətə dolğun, düzgün informasiyalar verilməsi böyük əhəmiyyət daşıyır / M. Rzayeva // Şərq. - 2024.- 3 oktyabr. - № 180. - S. 6.

- **Sarıyeva, İradə.** Diasporumuz müharibədən sonra hansı "milli ideya" ilə işləməlidir? / İ. Sarıyeva // Bakı Xəbər. - 2024.- 10 sentyabr. - № 161. - S. 8.

- **Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu:** [sentyabrın 9-da Bakıda Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu öz işinə başlayıb] // Xalq qəzeti. - 2024.- 10 sentyabr. - № 196. - S. 4.

- **Rzayeva, Məlahət.** Şəbəkələşmə əsas hədəfdir: Azərbaycan diasporu qarşısında duran yeni vəzifələr bəllidir / M. Rzayeva // Şərq. - 2024.- 4 sentyabr. - № 159. - S. 6.

- **Ələddinqızı, Z.** Dünya azərbaycanlıları vahid amalda / Z. Ələddinqızı // Səs. - 2024.- 5 iyul. - № 117. - S. 8.

- **Mirzəbəyli, Elçin.** Diaspor və lobbizim geosiyasi maraqlar kontekstində: IV yazı / E. Mirzəbəyli // Xalq Cəbhəsi. - 2024.- 26 iyun. - № 21. - S. 5.

- **Səfərova, Samirə.** Diaspor və lobbi faktoru Azərbaycanın beynəlxalq mövqelərini daha güclü hala gətirir... / S. Səfərova // Bakı Xəbər. - 2024.- 15 iyun. - № 105. - S. 8.

- **İsmayıl.** Diasporanın əhatə dairəsi genişlənməlidir: xaricdə soydaşlarımızdan ibarət yeni nəsil jurnalist, politoloq, ekspert komandası yetişməlidir / İsmayıl // Şərq. - 2024.- 21 may. - № 88. - S. 6.

- **Mirzəbəyli, Elçin.** Diaspor və lobbi təsisatları geosiyasi alət kimi: II yazı / E. Mirzəbəyli // Xalq Cəbhəsi. - 2024.- 16 may. - № 16. - S. 5.

- **Bayramova, Yeganə.** Diasporumuzun koordinasiyalı fəaliyyəti : İtaliyada Azərbaycan icması ilə görüş... / Y. Bayramova // Yeni Azərbaycan. - 2024.- 3 may. - № 77. - S. 6.

- **Rzayeva, Məlahət.** Diaspor təşkilatları fəal olmalıdır: Azərbaycan milli mətbəxi həqiqətən də istənilən dünya mətbəxi ilə rəqabət aparmaq gücündədir // Şərq. - 2024. - 17 aprel. - № 65. - S. 6.

- **Bayramova, Yeganə**. Azərbaycan diasporunun dinamikası: Mühüm işlər görülür... // Yeni Azərbaycan.-2024.-4 aprel.-№58.-S.6.

- **Sarıyeva, İradə.** Vəziyyət dəyişdi, Azərbaycan diasporunun yeni vəzifələri ortaya çıxdı... // Bakı Xəbər. - 2024. - 15 mart. - № 49. - S. 8.

- **Xəyal, Röyalə.** Azərbaycan diasporunun quruculuq fəaliyyəti digər ölkələrin fəaliyyətindən üstün keyfiyyətlərə malikdir // Olaylar.-2024.-8-14 mart.-№9.-S.11.

- **Qocayev, İsmayıl**. Yarım milyon azərbaycanlı az qüvvə deyil: Diasporun Ukrayna cəmiyyətinə inteqrasiyası, soydaşlarımızın yüksək vəzifələrə təyin olunmaları üçün səylər birləşdirilməlidir // Şərq. - 2024. - 30 yanvar. - № 17. - S. 6.

- **Sarıyeva, İradə.** Seçki dövründə Azərbaycana təzyiqlər və diasporun yeni mərhələdə fəallığı... // Bakı Xəbər. - 2024. - 20-22 yanvar. - № 11. - S. 8.

- **Məmmədov, Ramin.** Rusiyada milli diasporumuz: Yaranması, inkişafı, mətbuatı, ədəbiyyatı, həmrəyliyi / R. Məmmədov // Olaylar. - 2024.- 12-18 yanvar. - № 2. - S. 17.

## Seçki dövründə Azərbaycana təzyiqlər və diasporun yeni mərhələdə fəallığı...

**İradə Sarıyeva**

**Xaricdə yaşayan azərbaycanlılar dövlətimizin, dövlətçiliyimizin, mədəni, mənəvi dəyərlərimizin dünyada ən önəmli təbliğatçısı, tərənnümçüsü olmalıdır. Dünyanın beş qitəsində məskunlaşan azərbaycanlılar tarixin müxtəlif dövrlərində Şimali və Cənubi Azərbaycandan, Gürcüstandan, Qərbi Azərbaycandan köçərək xarici ölkələrə üz tutublar.**

Təbii ki, bu insanların hər birinin də özünün ayrıca həyat hekayəti, köç tarixçəsi var. Bu insanlar illərdir Vətəndən kənarda yaşasalar da, ürəkləri, ruhları və kökləri ilə öz ata yurdlarına bağlıdırlar. Amerika, Avropa, Asiya, Afrika və Avstraliya qitələrində yaşayan soydaşlarımız son 30 ildə daha çox fəallıqları, Azərbaycan gerçəkliklərini, dövlətimizin ədalətli mövqeyini təbliğ etməyi özlərinə əsas xətt seçiblər. Sözsüz ki, 50 milyonluq dünya azərbaycanlılarının artıq formalaşmış diaspor qurumları, lobbi təşkilatları da bu xəttin əsas hərəkətverici qüvvəsi kimi görsənir.

Gizlin deyil ki, bu gün bəlli qara qüvvələr, antiazərbaycançılar Amerikadan, Avropa ölkələrindən ölkəmizə qarşı qara piar kampaniyası həyata keçirir. Xüsusən də, Azərbaycanın 7 fevral növbədənkənar prezident seçkilərinə hazırlaşdığı, artıq namizədlərin seçki kampaniyasına başladığı günlərdə Avropada, ABŞ-da fəaliyyət göstərən müxtəlid institutlar, icmalar, media qurumları ölkəmizi hədəfə alıblar. Fransa Senatının son günlər Azərbaycan əleyhinə qəbul etdiyi qətnamə, ondan əvvəl əleyhimizə qəbul edilən sənədlər dünya azərbaycanlılarını, diaspor fəallarını narahat etməyə bilmir. Seçki öncəsi müxtəlif məsələləri bəhanə tutub Azərbaycana qarşı hücuma keçənlərin məqsədi açıq düşmənçilikdir. Onlar çalışırlar ki, bu çirkin kampaniyaları ilə Azərbaycanla bağlı yanlış imic yaratsınlar və indidəndən seçkinin nəticələrini qaralasınlar.

Heç şübhəsiz, bu gün xaricdəki erməni diasporunun nümayəndələri gecə-gündüz demədən Azərbaycan əleyhinə müxtəlif dövlətlərə, beynəlxalq təşkilatlara məktublar göndərir, müraciətlər edirlər. Onların müraciət etdikləri bütün ölkələr olmasa da, Fransa kimi qatı ermənipərəst dövlət Azərbaycan əleyuhinə öz senatında bədnam qətnamə qəbul edə bilir. Fransa senatının, ABŞ konqresinin, eləcə də başqa Qərb təşkilatlarının senatorları, konqresmenləri, deputatları erməni diasporunun əlində oyuncağa çevirilib. Elə buna görə də, seçki öncəsi onların bizə qarşı qərəzli, düşmən kampaniyaları davam edir.

**Növbədənkənar prezident seçkiləri öncəsi Azərbaycana qarşı qarayaxma kampaniyalarına qarşı dünya azərbaycanlıları nə iş görməlidir?**

Müasir İnkişaf Birliyinin sədri Mübariz Göyüşlü "Bakı-Xəbər"ə bildirdi ki, biz indi çox həssas və məsuliyyətli bir mərhələdiyik, ölkəmiz növbədənkənar prezident seçkilərinə hazırlaşır. O, qeyd etdi ki, ölkədə keçiriləcək bu seçkilər xaricdə yaşayan soydaşlarımızı da ciddi maraqlandırmalıdır. Müsahibimiz vurğuladı ki, antiazərbaycan qüvvələr prezident seçkiləri öncəsi xüsusi təşkilatlanıb və xarici təşkilatlar vasitəsilə dövlətimiz əleyhinə çıxışlar, qətnamə qəbul edirlər. O, hesab edir ki, Fransansanın Qarabağla bağlı qəbul etdiyi son qətnamə bu ziyanlı addımlardan biridir. "Xaricdə yaşayan azərbaycanlılar bu antiazərbaycan təbliğatına qarşı əlindən gələni etməlidir" deyən M.Göyüşlü qeyd etdi ki, biz hər bir yeni gün mövqeyimizi daha da gücləndirməliyik. "Əvvəla, dünya azərbaycanlıları daha güclü şəkildə təşkilatlanmağa çalışmalıdır. Onların təşkilatlanma istiqamətində çalışmaları zəif təsir bağışlayır. Mənə elə gəlir ki, yetərli qədər deyil. Güclənmiş Azərbaycan diasporu öz sözünü həm yerli dövlət qurumlarının qarşısında deyər, haqq səsini çatdırıb sözünü deyə bilər. Bunu ona görə deyirəm ki, onlar onların nüfuzu güclənməlidir. Hər bir dövlət qurumunda, təşkilatda söz sahibi olmağa çalışmalıdırlar.

Bununla belə, indiyə qədər diasporumuzun Azərbaycan dövlətinin müdafiəsi ilə bağlı diqqət çəkən davranışları, hərəkətləri olub. Bilirsiz ki, 44 günlük Vətən müharibəsi günlərində Azərbaycan diasporu xaricdəki qara qüvvələrə qarşı mübarizə apardı, sonrakı dönəmlərdə də biz bunun şahidi olduq. Elə 2 il əvvəl Fransa senatının qəbul etdiyi üzdəniraq qətnaməyə etiraz olaraq senatın qarşına toplaşıb öz sözlərini dedilər. İstəyimiz odur ki, azərbaycanlıların səsləri eşidilsin.

Dünya azərbaycanlılarından hər zaman fəallıq tələb olunur. Xüsusən də prezident seçkiləri öncəsi onların fəaliyyətinin daha da güclənməsinə ehtiyac var" - deyə M.Göyüşlü bildirdi.

**"Diasporumuz hər cür təxribatın qarşısının alınmasında aktiv olmalıdır"**

M.Göyüşlü bildirdi ki, bəzi Avropa ölkələri, Qərb təşkilatları Qarabağdan könüllü köğçən erməniləri bəhanə gətirib Azərbaycana qarşı müxtəlif addımlar atırlar. Onların məqsədinin Azərbaycanın nüfuzuna xələl gətirmək olduğunu deyən M.Göyüşlü "Diaspor fəallarımız, lobbi təşkilatlarımız xaricdəki antiazərbaycan qüvvələrə qarşı aktiv fəaliyyət göstərməlidir. Xüsusən də seçki öncəsi qara qüvvələr daha çox aktivləşib. Diasporumuz hər cür təxribatın qarşısının alınmasında aktiv olmalıdır. 2024-cü ildə Azərbaycanda çox mühüm tədbirlər həyata keçiriləcək. Növbədənkənar prezident seçkiləri olacaq, Azərbaycan COP29-a ev sahibliyi edəcək, həmçinin başqa beynəlxalq tədbirlərə də şahidlik edəcəyik. Bu il çox önəmli ildir. Onlar hər zaman Azərbaycanın maraqlarını müdafiə etmək üçün mütamadi olaraq tədbirlər keçirmələli, müsahibələr verməli, yazılar hazırlamalıdırlar"-deyə bildirdi. O əlavə etdi ki, dünya azərbaycanlıları bizim haqlı işimizin əsas müdafiəçisi kimi daim fəaliyyətdə olmalıdır. Bu sahədə onların üzərinə böyük ioşlər düşdüyünü deyən M.Göyüşlü əlavə etdi ki, Azərbaycanda keçiriləcək Prezident seçkilərinin obyektivliyinə, demokratikliyinə, xalqımızın iradəsinə, seçiminə heç bir xarici qüvvə ləkə yaxa bilməz.

**Bakı Xəbər**. - 2024. - 20-22 yanvar. - № 11. - S. 8.

## Yarım milyon azərbaycanlı az qüvvə deyil

### Diasporun Ukrayna cəmiyyətinə inteqrasiyası, soydaşlarımızın yüksək vəzifələrə təyin olunmaları üçün səylər birləşdirilməlidir

**İsmayıl Qocayev**

**Qloballaşan dünyada miqrasiya qarşısıalınmaz bir prosesə çevrilib və insanlar, o cümlədən də azərbaycanlılar harada doğulmalarından asılı olmayaraq, sərbəst şəkildə başqa ölkədə, başqa qitədə yaşamağı seçə bilirlər. Sevindirici haldır ki, dünyanın 5 qitəsində yaşayan soydaşlarımız məskunlaşdıqları ölkələrin siyasi, iqtisadi və sosial həyatında yaxından iştirak edirlər**.

Hazırda azərbaycanlılar dünyanın 100-dən çox ölkəsində yaşayırlar. 70-dən çox ölkədə yaşayan soydaşlarımızla intensiv əlaqələr mövcuddur. Avropa ölkələrində, ABŞ-də, qonşu Rusiyada, Türkiyədə yaşayan həmvətənlərimizin sayı digər ölkələrə nisbətdə daha çoxdur. Son dövrlərdə müxtəlif ölkələrdəki diaspor təşkilatlarımızın fəallığı daha da artmaqdadır ki, bu da təbiidir. Qarabağ Zəfərindən sonra dövlətimizin yeni inkişaf strategiyasını, milli ideologiyanın yeni istiqamətlərini müəyyənləşdirməsi prioritet vəzifəyə çevrilib. Şübhəsiz, bu missiyada xaricdəki diasporamızın da üzərinə müəyyən vəzifələr və yeni missiya qoyulub. Dünyanın bir çox ölkəsində təşkilatlanmış diaspor qurumlarımız yeni dövrün reallıqlarına və tələblərə adekvat olaraq öz fəaliyyət çərçivələrini daha da genişləndirməyə üstünlük verirlər. Azərbaycan diasporasının uzun illərdir fəaliyyət göstərdiyi tərəfdaş ölkələrdən biri də hazırda Rusiya ilə müharibə şəraitində olan Ukraynadır. Məlum olduğu kimi, yanvarın 22-də Ukrayna və Azərbaycan diasporları arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Memorandum imzalanıb. Bu barədə Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski feysbuk səhifəsində məlumat yayıb. Səfir bildirib ki, bu hadisənin bütün dünyada ukraynalıların Birlik Gününü qeyd etdiyi bu gün baş verməsi simvolikdir: "Axı bütün ukraynalıların səylərinin birləşdirilməsi Ukraynanın qaçılmaz qələbəsinə, suverenliyin və ərazi bütövlüyünün bərpasına zəmanət verən ən güclü silahdır. Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporu ilə Azərbaycandakı Ukraynalıların Birləşmiş İcması arasında Memorandum xalqlarımız arasında dostluğun möhkəmləndirilməsi üçün möhkəm zəmin yaradır və Ukrayna ilə strateji tərəfdaşlığın inkişafı çərçivəsində birgə layihələrin həyata keçirilməsinə töhfə verəcək. Memorandumun məqsədi, həmçinin Rusiyanın Ukraynaya qarşı davam edən silahlı təcavüzü kontekstində Ukrayna və Azərbaycan diasporlarının səylərini və birgə fəaliyyətini əlaqələndirməkdir". Kanevski Ukraynadakı Azərbaycan diasporunun rəhbəri Hikmət Cavadovu və Azərbaycandakı Ukrayna İcmasının rəhbəri Tamila Musayevanı səfirliyin binasında qəbul edib. Ukraynaya dəstək məqsədilə layihələrin həyata keçirilməsində mümkün töhfələrinə görə onlara təşəkkürünü bildirib. Müxtəlif mənbələrin məlumatına görə, Ukraynada müharibədən öncə təxminən 500 min azərbaycanlı yaşayıb. Bu ölkənin çoxsaylı şəhərlərində Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir. Azərbaycanda isə rəsmi statistikaya görə, 21.5 min ukrayn yaşayır. Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Mirqorod şəhər və Mirqorod rayon təşkilatının sədri Zamir İsmayılov da bildirib ki, digər ölkələrdə olduğu kimi, Ukraynadakı diasporumuz da yeni hədəflər istiqamətində fəaliyyətini gücləndirməlidir. Diaspor fəaliyyəti lobbiçiliyə çevrilməlidir: "Ukraynada yaşayan soydaşlarımız yerli şuralara, Ali Radaya deputat seçilmək istiqamətində səylərini birləşdirməlidirlər. Ukraynanın dövlət strukturlarına inteqrasiya artmalıdır". Onun sözlərinə görə, təbii ki, Azərbaycanın Zəfərini, uğurunu həzm edə bilməyən xarici qüvvələr ölkəmizə qarşı çirkin kampaniyanı, təzyiqi dayandırmayacaq. Azərbaycan diasporu ölkəmizə qarşı hər bir təxribatla bağlı ayıq-sayıq olmalı, yeni milli strategiyanın tələblərindən irəli gələn hədəflərə çatmaq üçün səylərini gücləndirməlidir. Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Gənclər və idman departamentinin rəhbəri, Lvovdan diaspor fəalı Şəhriyar Məhərrəmov isə bildirib ki, Qarabağ Zəfərindən sonra dövlətimizin yeni inkişaf strategiyası və milli ideologiyanın yeni istiqamətləri müəyyənləşib: "Ona görə də Azərbaycanın xaricdə fəaliyyət göstərən diaspor təşkilatları qarşısında artıq yeni hədəflər qoyulub və digər ölkələrdə də olduğu kimi, Ukraynada yaşayan diaspor fəallarımız da fəaliyyətini artıq bu yeni məqsədlərə çatmaq istiqamətində quracaq. Sözsüz ki, biz artıq lobbiçilik fəaliyyəti haqqında düşünməliyik və diaspor olaraq dövlətimizin güclənməsinə daha ciddi töhfə və dəstək verməliyik. Yerli seçkili orqanlara və Ali Radaya seçilmək, ümumiyyətlə, diasporun Ukrayna cəmiyyətinə inteqrasiyası, soydaşlarımızın yüksək vəzifələrə təyin olunmaları üçün səylər birləşdirilməlidir. Qarabağın yenidən qurulmasına, Azərbaycanda yeni

islahatların aparılmasına diaspor da öz töhfəsini verməlidir”. O bildirib ki, ümumiyyətlə, dünyada fəaliyyət göstərən diaspor təşkilatları vahid yeni milli ideologiyanın, strategiyanın formalaşması istiqamətində “Yol xəritəsi” hazırlamalı və Azərbaycan dövlətinə təqdim etməlidir.

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədrinin müşaviri, siyasi şərhçi Azər Qasımov "Sherg.az"a açıqlamasında bildirib ki, diasporaların müvafiq ölkələrin həyatında xüsusi rol oynadığı şübhəsizdir. Ekspert diqqətə çatdırıb ki, özlərinə ikinci vətən seçən diaspora üzvləri qarşılıqlı olaraq iki ölkənin münasibətlərinin qurulmasında, yaxınlaşmasında əhəmiyyətli yer tuturlar:**

"Ukraynada yaşayan azərbaycanlıların çoxluğu real faktdır və onlar hətta Ukraynanın şəhərlərində müəyyən yerlərdə qruplar şəklində yaşayırlar. Ukrayna azərbaycanlı tələbələr üçün ali təhsil baxımından xüsusi yer tutub. Azərbaycan dövləti hər zaman Ukraynanın haqq müharibəsini dəstəkləyib. Oradakı azərbaycanlılar bu müharibədə qəhrəmanlıqları ilə seçilib, hətta şəhid olublar. Bu da iki ölkənin münasibətlərini daha da doğmalaşdırıb. Azərbaycanın Ukraynanın yanında olduğu dəfələrlə sübut edilib. Müxtəlif yardım kampaniyası ilə Ukraynaya dəstək olmuşuq. Bu baxımdan Azərbaycan-Ukrayna diaspor təşkilatlarının daha da səmərəli işləməsi üçün memorandum imzalanıb".

**Politoloq vurğulayıb ki, memorandumun imzalanması hələ işin başlanğıcıdır:**

"Bunun üçün ciddi iş aparılmalıdır. İlk növbədə diaspor təşkilatına elə adam rəhbərlik etməlidir ki, onun sözü eşidilsin. Eşitmişəm ki, diaspora rəhbərliyinin Ukraynada fəaliyyətinin qurulması üçün dövlət tərəfindən göstəriş verilib, amma nəticə etibarı ilə iş yarımçıq qalıb. Ukraynadakı hərbi durumu nəzərə alıb, Azərbaycan diasporasının daha ciddi təşkilatlanmalı olduğunu düşünürəm. Bu təşkilatlanma Ukrayna dövləti səviyyəsində sözünü deyə və hesaba alınacaq səviyyədə olmalıdır. Azərbaycan dövləti təbii ki, maliyyə məsələlərini həll etməlidir. Ukraynanın bir çox şəhərlərində yaşayan azərbaycanlıların əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməsi üçün həm internet, həm də Ukrayna telekanallarında xüsusi proqramların hazırlanması işin xeyrinədir. Diaspora təşkilatının həftəlik mətbu orqanı olsa, yaxşı olar. Həmin çap edilən qəzet və ya jurnallar azərbaycanlılara göndərilər. Onlar da bir-birilərindən daha yaxşı xəbər alarlar, öz təkliflərini, problemlərini bildirərlər. Yarım milyon azərbaycanlı təbii ki, az qüvvə deyil. Onların müəyyən vəzifələrə gəlməsi üçün də addımlar atıla bilər. Hesab edirəm ki, digər diaspor təşkilatlarının təcrübələrini də öyrənib tətbiq etmək olar".

**Şərq**. - 2024. - 30 yanvar. - № 17. - S. 6.

## Azərbaycan diasporunun quruculuq fəaliyyəti digər ölkələrin fəaliyyətindən üstün keyfiyyətlərə malikdir

**Röyalə Xəyal**

Hər bir dövlətin gücü, qüdrəti onun xaricdə formalaşdırdığı diaspor və lobbiçilik fəaliyyəti, həmçinin, millətinin həmrəyliyi ilə müəyyən edilir ki, bu baxımdan diaspor fəaliyyəti olduqca vacib sayılır.

Siyasi ekspert Aydın Quliyev də bildirir ki, diaspor quruculuğu hər bir dövlətin əsas fəaliyyət istiqamətlərindən biridir:

"Hətta bəzi xalqların, dövlətlərin timsalında belə bir amil var ki, milli dövlətin yaranmasında əsas rolu diaspor qurumları və diaspor oynayıb. Amma bu, Azərbaycanda başqa cürə getdi. Çünki 1991-ci ildə Azərbaycan müstəqillik əldə edəndə bizim dünyada ayrıca azərbaycanlılar diasporu deyilən bir anlayış yox idi. Düzdür, dünyada azərbaycanlılar var idi, amma azərbaycanlılar diaspor şəklində formalaşmamışdılar və dünyada Azərbaycan diasporunun formalaşması da, bir qayda olaraq müstəqil Azərbaycan dövlətinin elan olunmasından sonra başladı və bizim bu gün dünyadakı diasporumuzu birmənalı şəkildə Azərbaycan dövlətinin işinin böyük nəticələrindən biri saymaq olar. Beləliklə, dünya miqyasındakı Azərbaycan diasporu və müstəqil Azərbaycan dövləti 50 milyonluq xalqımızın dünyada, bölgədə mövqeyini müəyyən edən iki əsas faktor və gücə çevrilib.

Əslində bu gün bizim böyük diasporumuz da məhz dövlətin himayəsi altındadır, dövlətin dəstəyi altındadır. Bu cəhətdən də Azərbaycanda diaspor quruculuğu fərqlənir. Bəzi adını çəkmək istəmədiyim başqa xalqların dövlətləri də, diasporları da var. Amma onların diasporları dövlətin üzərində nəzarət edir və dövləti təsir altında saxlayırlar. Bu cəhətdən də Azərbaycan fərqli və pozitiv bir xüsusiyyətə malikdir, üstün keyfiyyətə malikdir. Bu da ondan ibarətdir ki, Azərbaycan dövləti və Azərbaycan diasporu bir-birinə üzvü şəkildə bağlıdır. Azərbaycan diasporu öz gücünü Azərbaycan dövlətindən alsa da, amma Azərbaycan dövlətinin üzərində diasporun heç bir üstünlüyü yoxdur. Əksinə, diasporun dünya miqyasındakı fəaliyyətini Azərbaycan dövləti, müvafiq Azərbaycan dövlətinin qurumu idarə edir. Bu, dünyada unikal bir təzahürlərdən biridir ki, həm dövlətlə diaspor arasında çox böyük bağlılıq var, həm də dövlət diasporun fəaliyyətini tam şəkildə yönəldir və idarə edir. Məsələn, biz baxsaq, bu gün Ermənistan dövləti və Ermənistan diasporunun münasibətlərinə, burada Azərbaycandan çox fərqli, həm də neqativ görüntülər var. Bu ondan ibarətdir ki, Ermənistan dövlətinin əslində formalaşması tam şəkildə erməni diasporunun nəzarəti, təsiri və yönəltməsi altında baş verdi. Xaricdə çox varlı erməni diasporu var və onlar Ermənistan dövlətinin qurulmasında, yaradılmasında və təcavüzkar siyasətə yönəldilməsində böyük rol oynadılar.

Diqqətlə baxanda erməni dövləti və erməni diasporunun münasibətlərində həmişə müxtəlif mərhələlər, fasilələr olub. 1990-cı illərdə müstəqil erməni dövləti yarananda, bu dövlətin yaradılma prosesinin üzərində varlı erməni diasporunun və erməni lobbisinin böyük təsirləri olub. Sonra Paşinyan hakimiyyətə gələndən sonra diasporun rolunu sıfıra endirdi, diaspor təşkilatlarına dövlətin dəstəyini kəsdi, hətta diasporla məşğul olan Ermənistandakı dövlət qurumunu belə ləğv elədi və uzun müddət diasporla erməni dövlətinin arasında əlaqəsizlik, rabitəsizlik yarandı. Amma bu cəhətdən Azərbaycan tam hesablanmış, məntiqli bir model içindədir. Bizim Azərbaycan dövləti ilə diasporumuzun arasında həmişə dinamik inkişafı edən münasibət olub, burada heç vaxt fasilə yaranmayıb və Azərbaycan dövləti diasporun fəaliyyəti üzərində özünün metodiki və azərbaycançılıq ideologiyası əsasında nəzarətini, yönəldici fəaliyyətini davam etdirib.

Bunlar, əlbəttə, Azərbaycan diaspor quruculuğunun mühüm əlamətləri, keyfiyyətləridir və Azərbaycan diaspor quruculuğunu başqa ölkələrin diaspor quruculuğundan fərqləndirir. Tam cəsarətlə demək olar ki, bu gün Azərbaycan diasporunun quruculuğu fəaliyyəti erməni diasporunun və ümumiyyətlə, digər ölkələrin, xalqların diasporlarının fəaliyyətindən əhəmiyyətli dərəcədə fərqlənir və üstün keyfiyyətlərə malikdir.

Azərbaycan diasporu ilə Azərbaycan dövlətinin birliyi bizim Vətən müharibəsində qələbəmizin ən böyük motivlərindən birinə çevrildi və bu işdə həm dövlətin, həm də diasporun əsas ideoloji platforma kimi üstünlük verdiyi azərbaycançılıq ideologiyası öz rolunu oynadı.

Azərbaycan diasporunun bu gün fəaliyyətinin gücləndirilməsi yönümündə dövlət səviyyəsində iş aparılır. Bu gün əvvəlki dövrlərdə mövcud olan bəzi neqativ cəhətlərin artıq sıradan çıxdığını görürük. Məsələn, bizim diasporla xaricdəki diplomatik korpuslarımızın əlaqələrinin qurulması yönümündə aparılan

işin nəticələri var. Artıq xoşagəlməyən hallara rast gəlinmir və xaricdə müəyyən tədbirlərin həyata keçirilməsində diasporun və dövlət qurumlarının birgə anlaşıqlı fəaliyyətini görürük. Azərbaycan diasporunun gücü, dünyada bizim Qarabağla bağlı, arxada qoyduğumuz Vətən müharibəsi ilə bağlı ərazi bütövlüyümüzün təmin olunması uğrunda apardığımız müharibənin həqiqətlərinin dünya miqyasında təbliğ olunmasında da diasporun böyük rolu var.

Bir sözlə, həm Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında diasporumuzun aktiv iştirakını görürük, həm Azərbaycan dövlətinin bugünkü inkişaf səviyyəsinin, dünyada tanıdılması yönümündə diasporun fəaliyyətinin iştirakını görürük, həm də Azərbaycan diasporunun Azərbaycan dövlətinə və Azərbaycan xalqına bağlılığını hər ötən il inkişaf edərək gücləndiyinin şahidi oluruq. Beləliklə, Azərbaycan xalqı bu gün, əslində həm regional, həm də beynəlxalq münasibətlərdə iki böyük gücə söykənir. Birinci, Azərbaycan dövləti, ikinci, Azərbaycan dövlətinin himayəsi və dəstəyi altında fəaliyyət göstərən Azərbaycan diasporu. Bu iki amil Azərbaycan xalqının dünyada gücünü müəyyən edən iki böyük faktordur".

**Olaylar.-**2024.-8-14 mart.-№9.-S.11.

## Vəziyyət dəyişdi, Azərbaycan diasporunun yeni vəzifələri ortaya çıxdı...

**İradə Sarıyeva**

**Azərbaycançılıq məfkurəsi ətrafında birləşmək və Azərbaycan dövlətinin maraqlarını müdafiə etmək istiqamətində böyük fəallıq göstərən xaricdəki Azərbaycan diasporu 44 günlük müharibə dövründə, eləcə də ondan əvvəlki zamanda antiazərbaycan qüvvələrə qarşı layqili mübarizə aparıb.**

44 günlük Vətən müharibəsindən və 2023-cü ilin 19-20 sentyabr hadisələrindən, dövlətimiz bütün ərazilərində öz suverenliyini bərpa etdikdən, Xankəndidə, Ağdərədə, Xocalıda öz bayrağını ucaldandan sonra xaricdə Azərbaycana qarşı aparılan çirkli kampaniyaların miqyası da genişlənib.

**Azərbaycan diasporunun yeni vəzifələri ortaya çıxıb...**

Bəzi ölkələr, bəzi beynəlxalq qurumlar özlərini ermənidən çox erməni kimi aparmağa başlayıblar. Göründüyü kimi, hazırda antiazərbaycan qüvvələr hərəkətə keçib, Azərbaycanla bağlı şərləmə kampaniyası davam edir. Xaricdəki qüvvələr, beynəlxalq təşkilatlar, Fransa, Almaniya kimi ölkələr bizə qarşı hücum kampaniyaları təşkil edirlər.

Əslində baş verən proseslərin obyektiv şəkildə dünya birliyinə çatdırılması üçün diasporun üzərinə yeni vəzifələr düşür. Onlar nə etməlidir? Beynəlxalq müstəvidə yalan, dezinformasiya yayan qüvvələrlə xaricdəki Azərbaycan diasporu, Azərbaycan lobbisi necə mübarizə aparmalıdır? Son vaxtlar vəziyyət dəyişdiyi üçün Azərbaycan diasporunun yeni vəzifələri ortaya çıxıb, bu baxımdan görüləcək işlər nədən ibarət olmalıdır.

Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə “Bakı-Xəbər”ə şərhində bildirdi ki, bu gün bir çox Qərb ölkələri nə qədər demokratiyadan danışsalar da, onların digər ölkələrə, xüsusən də Azərbaycana qarşı yürütdükləri qərəzli, antidemokratik siyasətlə əslində demokratiyanı ayaq altına atmış olublar. “Biz bunu, xüsusən də 44 günlük Vətən müharibəsindən sonra Fransanın, Almaniyanın və digər onlar kimi ölkələrin timsalında görürük. Bu gün məhz Fransa Azərbaycana qarşı məhz qara kampaniyanın önündə gedir. Başqa ölkələr də onun əlaltısına çevrilərək bu kampaniyaya qoşuldular. Həmin ölkələrin parlamentariləri Azərbaycana qarşı antiazərbaycan siyasəti yürüdərək əsassız iddialarla çıxış edirlər. Biz bunu keçən il AŞPA-da Azərbaycana qarşı sərgilənən qeyri-obyektiv davranış zamanı bir daha gördük. Əlbəttə, bunların mahiyyətində erməniپərəstlik, Ermənistanın müdafiəsi dayanır. Bu ölkələr milli-mənəvi baxımdan Ermənistana yaxın xristian dövlətləridir. Elə Almaniya da, Fransa da hər zaman Ermənistanı, erməniləri dəstəkləyiblər. Fransa daha sərt mövqelər orataya qoyur.

Bu yaxınlarda cənab Prezident Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən maraqlı bir fikir söylədi, bildirdi ki, Almaniya qonşuluğunda yerləşən, necə deyərlər, alovun üstünə benzin tökən və Ermənistanı öldürücü silahlarla təchiz edən Fransadan fərqli olaraq sülh prosesində neytrallıq nümayiş etdirir” - deyə qeyd edən F.Hüseynzadənin sözlərinə görə, Almaniya nisbətən neytrallığını qoruyub saxlaya bilir, amma yenə də hamısı mənəvi olaraq yenə də Ermənistanın yanındadırlar. O, hesab edir ki, Almaniya da, alman xalqı da Ermənistana isti münasibətləri ilə seçilir.

**“Onlara qarşı Azərbaycan diasporu da ortaya bir güc qoymalıdır”**

F.Hüseynzadə hesab edir ki, bunun da kökündə Fransa kimi Qərb ölkələrinin Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini qəbul edə bilməməsi dayanır, ona görə də ölkəmizə qarşı belə böhtançı çıxışlar edirlər. “Halbuki, bu ölkələr barədə araşdırma aparanda dözümsüzlük, irqi ayrı-seçkilikdə, saxtalarlıqda irəlidə gedirlər. Bunu o ölkələrin daxilindəki vətəndaş narazılığından, sosial etirazlardan görürük. Onların Azərbaycana qarşı irəli sürdüyü iradlar əslində onların öz ölkələrində var, orada demokratiya, insan azadlığı, söz azadlığı kimi məsələlər yoxdur. Bu baxımdan, bunları Azərbaycan qəbul etmir. Cənab Prezident Fransanın qərəzli davranışını hər zaman qeyd edir. Hesab edirik ki, onlara qarşı Azərbaycan diasporu da ortaya bir güc qoymalıdır. Əlbəttə ki, biz Avropada və digər ölkələrdə lobbiçilik işini gücləndirmədik. Yəni biz bu gün diaspordan lobbiçiliyə gedən strategiyanı həmişə qeyd edirik. Disapordan lobbiçiliyə keçmək lazımdır. Xüsusən, Vətən müharibəsindən sonra Azərbaycana qarşı qərəzli beynəlxalq qara kampaniyaların artığı bir zamanda bunların qarşısı almaq üçün diaspor güc qatmalıdır. Diasporun da məsuliyyəti artıb, yeni fəaliyyət istiqamətləri ortaya qoyulmalıdır. Dünya trendlərində, dünya

platformalarında səs salacaq işlər görülməlidir. Yəni diaspor bu gün təşkilatlanıb, mütəşəkilləşib, amma bunu məhz bu fəaliyyətlərə qarşı cavab tədbirlərinin görülməsilə öz güclərini göstərməlidirlər.

Diasporun üzərinə düşən əsas vəzifələrdən biri də yaşadıqları ölkələrdə media ilə iş qurmaqdır, onlar media üzərindən təbliğatı artırmalıdırlar. Xüsusən rəsmi qurumlarla görüşləri intensivləşməlidir. Biz həmişə deyirik ki, Azərbaycan diasporu yaşadığı ölkənin elitar dairəsi ilə görüşüb, ünsiyyət qurub hədəfi vuracaq işlər görməlidir. Biz bununla da öz hədəflərimizə çata bilərik, bununla o qara kampaniyalara cavab vermiş olarıq" - deyə F.Hüseynzadə vurğuladı.

**Bakı Xəbər.** - 2024. - 15 mart. - № 49. - S. 8.

## Azərbaycan diasporunun dinamikası

### Mühüm işlər görülür...

**Yeganə Bayramova**

Vətən müharibəsindən əvvəl də, müharibə zamanı və sonrasında da Azərbaycan diasporunun aktiv fəaliyyətinin şahidi olmuşuq. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında dünyada yalan və saxta təbliğat aparan erməni diasporuna qarşı böyük qələbələr qazanıb. Ölkə başçısı erməni diasporunun Azərbaycana qarşı həyata keçirdiyi yalan təbliğatların dövriyyəyə buraxılmasının qarşısını hər zaman alıb. Eləcə də Azərbaycana qarşı düşmənçilik siyasətinin qarşısının alınmasında çox böyük işlər görülüb.

Azərbaycan diasporunun fəaliyyəti nəticəsində demək olar ki, dünyadakı erməni diasporunun heç bir ciddi fəaliyyətini görmürük. Bunların hamısını nəzərə alaraq deyə bilərik ki, Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurlar, eyni zamanda diaspor sahəsində də özünü büruzə verib. Təbiidir ki, diasporumuzun bugünkü fəaliyyəti həm dünya ictimaiyyəti tərəfindən, həm də xalqımız tərəfindən yüksək dəyərləndirilir. Məlumdur ki, Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın diasporunun inkişaf etdirilməsi tam təkmilləşmiş şəkildə həyata keçirilməyə başladı. Ulu Öndər bu sahədə qarşıya çox böyük tapşırıq və vəzifələr qoydu. Bunun nəticəsi olaraq da diasporumuz ildən-ilə inkişaf etməyə başladı.

Prezident İlham Əliyevin hakimiyyəti dövründə də bu istiqamətdə öhdəliklər daha da gücləndirildi. Azərbaycan həqiqətlərinin, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində çox mühüm tapşırıqlar oldu və diasporumuz bu tapşırıqların öhdəsindən layiqincə gəldi. Biz bu gün fəxrlə deyə bilərik ki, bizim güclü, təşkilatlanmış diasporumuz var.

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən Diaspor İnformasiya Mərkəzinin sədri Toğrul Allahverdili bildirib ki, diaspor quruculuğunun və lobbiçiliyin birgə inkişafı dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmazlığını təmin edən şərtlərdən biridir. Onun sözlərinə görə, siyasi baxışından, düşüncə tərzindən asılı olmayaraq, xaricdəki azərbaycanlı elm, mədəniyyət, incəsənət, ictimai xadimlərinin, gənclərinin bir araya gəlməsi təqdirəlayiq haldır: "Azərbaycan diaspor siyasəti düşünülmüş və məqsədyönlü fəaliyyəti ilə çoxtərəfli formatda davam etdirilərək dövrün tələblərinə uyğunlaşdırılıb, bu sahəyə aid konkret addımlar atılıb. Milli mənlik şüuruna, özünüdərketmə prosesinə söykənən strategiyanı yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyevin Azərbaycan diaspor siyasətinə konseptual yanaşması və lobbiçilik fəaliyyətinin perspektiv cəhətləri barədə mövqeyi bu baxımdan xüsusilə diqqət çəkir. Hazırda Azərbaycanın dinamik inkişafı, daxili və xarici siyasəti, uğurlu regional və beynəlxalq əməkdaşlıq manevrləri, həyata keçirilən iqtisadi layihələr dövlətimizin beynəlxalq arenadakı müttəfiqlərinin sayının artmasına imkan yaradıb. Belə bir şəraitdə məntiqi olaraq diasporumuzun da təşkilatlanma imkanları daha asan gerçəkləşməkdədir".

T.Allahverdilinin sözlərinə görə, dünyanın bir çox dövlətlərində səfirlik və konsulluqlarımızın, əlaqələndirici təşkilatlarımızın təsis olunması da bu sahənin inkişafına təkan verən amillərdəndir: "Bu rəsmi dövlət nümayəndəliklərimizin xarici ölkələrdə bilavasitə olaraq diaspor quruculuğunu himayəyə cəlb etməsi Azərbaycan diaspor cəmiyyətlərinin, milli icmaların yaranması işini daha da sürətləndirib. Bu instansiyalar ölkələrarası gediş-gəlişi asanlaşdırmaqla xalqlar və ölkələr arasında münasibətlərin qurulmasına, adət-ənənələrə qarşılıqlı hörmət və transformasiyaya öz töhfəsini verir, diplomatik münasibətlərə müsbət təsir göstərir. Başqa prizmadan yanaşıldıqda bu təmsilçiliklərin siyasi əhəmiyyətini də aydın şəkildə görə bilərik. Danılmazdır ki, bu təsisatlar hüquqi baxımdan soydaşlarımızın və həmvətənlərimizin müdafiə olunmasını və himayəsini təmin edir, hərtərəfli əməkdaşlıqlar üçün yeni qapılar açır".

T.Allahverdili qeyd edib ki, Vətən müharibəsi bir daha ölkə əhalisi ilə yanaşı, xaricdə yaşayan azərbaycanlıların da doğma Azərbaycan naminə bu günü və sabahı üçün mütəşəkkil qüvvəyə çevrildiyini göstərdi: "Dövlətin diqqət və qayğısı sayəsində əldə olunmuş bu böyük nailiyyət Azərbaycanın ata-babalarımızdan qalan irsini göz bəbəyi kimi qorumaq və gələcək nəsillərə ötürmək üçün ruh yüksəkliyi verir. Nəticədə Azərbaycan məhdud çərçivədə deyil, sərhədləri aşaraq dünyanın 5 qitəsində nüfuzunu gündən-günə möhkəmləndirməyə və qürbətdə yaşayan övladlarının hərtərəfli himayə edə biləcək gücə qadirdir. Məhz görülən əməli işlərin nəticəsində indi Azərbaycan diasporu çiçəklənmə dövrünü yaşayır və palitrası zənginləşir".

**Yeni Azərbaycan.-**2024.-4 aprel.-№58.-S.6.

## Diaspor təşkilatları fəal olmalıdır

### Azərbaycan milli mətbəxi həqiqətən də istənilən dünya mətbəxi ilə rəqabət aparmaq gücündədir

**Məlahət Rzayeva**

**Azərbaycanın turizm imkanları Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Təl-Əviv şəhərində keçirilən "Beynəlxalq Aralıq dənizi Turizm Bazarı" (IMTM 2024) sərgisində təbliğ olunub. Sərgidə ölkəmizi Azərbaycan Turizm Bürosu, "Azərbaycan Hava Yolları" QSC, "Şahdağ" Turizm Mərkəzi daxil olmaqla, ümumilikdə 6 yerli tərəfdaş təmsil edib. Milli stendi Azərbaycan Respublikasının İsrail Dövlətində fövqəladə və səlahiyyətli səfiri Muxtar Məmmədov ziyarət edib.**

Azərbaycan stendinin ziyarətçiləri ölkəmizin tarixi, zəngin milli mətbəxi, "Slow Food" və "Slow Wine" təcrübələri, adət-ənənələri, mədəni irsi, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olmuş obyektləri ilə tanış olur, müxtəlif turizm imkanları haqqında ətraflı məlumatlandırılırlar. Bundan əlavə, qonaqlar ölkənin mədəni landşaftının unikallığını nümayiş etdirən Azərbaycanın qədim yəhudi irsi haqqında məlumat əldə edirlər. Stendin ziyarətçiləri üçün Azərbaycanın milli şirniyyatları və yerli şərablarını dequstasiya etmək şəraiti yaradılıb. Təbii ki, bu cür tədbirlər, sərgilər turizmin inkişafı baxımından nə qədər önəmlidirsə, ölkəmizin tanıdılması, milli mətbəximizin təqdimatı baxımından da bir o qədər əhəmiyyətlidir. Məlum məsələdir ki, bədnam qonşumuz Ermənistan əsrlərdir xalqımızın milli-mədəni irsinə göz dikib. Azərbaycanın milli sərvətlərini – xalq musiqisindən tutmuş milli mətbəxinədək mədəni irsini bütünlüklə mənimsəməyə çalışan ermənilər bu nemətlərin onlara məxsus olduğunu dünyaya sübut etməyə durmadan səy göstərirlər. Erməni yalanlarının, erməni oğurluğunun ifşası üçün bizim də ciddi səy göstərməyimiz şərtdir. Son illərdə Azərbaycanın tanıdılması istiqamətində xaricdə yaşayan həmvətənlərimiz və diaspora təşkilatları ilə dövlət qurumları arasında faydalı əməkdaşlıq getdikcə genişlənir. Bunu dünyanın müxtəlif ölkələrində keçirilən "Azərbaycan günləri", "Azərbaycan həftəsi", ölkəmizi təmsil edən incəsənət nümayəndələrinin, kulinarlar komandalarının mötəbər yarışlara qatılması və müvəffəqiyyət əldə etmələrində görmək mümkündür. Məsələn, Almaniyanın Ştutqart şəhərində keçirilən "IKA – Dünya Kulinariya Olimpiadası"nda ölkəmizi Milli Kulinariya Mərkəzinin dəstəyi və Ümumdünya Aşpazlar Cəmiyyətləri Assosiasiyasının assosiativ üzvü olan Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyasının təqdimatı ilə 9 aşpazdan ibarət heyət "ictimai keytrinq" və "fərdi iştirakçı" kateqoriyalarında təmsil edib. Müsabiqənin standartlarına əsasən milli komandanının təqdim etdiyi menyu ölkəmizin təbii biomüxtəlifliyini əks etdirməklə, eləcə də milli mətbəx mədəniyyətinin əsasları nəzərə alınmaqla tərtib edilib. Müsabiqəyə təqdim olunan 2 menyuda Qafqaz şabalıdı, baltalı düyüsü kimi beynəlxalq "Slou Fud" qastronomik turizm modelinə daxil edilən, məhz Azərbaycana məxsus biomüxtəliflik nümunəsi kimi tanınan məhsullar, o cümlədən zəfərən, Zirə pomidoru, UNESCO-nun Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına salınmış yerli təbiət məhsullarından nar istifadə edilib. Tədbir çərçivəsində, həmçinin Ümumdünya Aşpazlar Cəmiyyətləri Assosiasiyasına ("Worldchefs") məxsus pavilyonda Azərbaycanın qastronomiyasını əks etdirən stend quraşdırılıb. Milli məhsul və təamların təqdim edildiyi stenddə ziyarətçilərə, o cümlədən qastronomiya mütəxəssislərinə ölkəmizin qastroturizm potensialı barədə məlumat verilib, Azərbaycan milli mətbəx nümunələrini dadmaq üçün şərait yaradılıb. Stenddə əsasən Naxçıvan və Qarabağ mətbəxi, eləcə də "Azərbaycanın UNESCO irsi üzrə qida ənənələri" tematikası ilə Ümumdünya İrs Siyahısına salınmış Şəki və Xınalıq üzrə mətbəxi nümunələri nümayiş etdirilib. Eləcə də milli komandanın qənnadçıları tərəfindən müsabiqənin şərtləri əsasında hazırlanan müxtəlif tematika və texnologiya ilə hazırlanan qənnadı məhsulları sərgilənib.

Əlbəttə, mötəbər beynəlxalq tədbirlərdə iştirak ölkəmizin tanıdılması baxımından çox əhəmiyyətlidir və diaspor təşkilatlarının öhdəsinə düşən vəzifə də belə tədbirlərdə Azərbaycan nümayəndə heyətinə hərtərəfli dəstək verməkdir.

Milli Kulinariya Mərkəzinin sabiq direktoru, ölkənin baş aşpazı kimi tanınan Tahir Əmiraslanov isə milli mətbəximizin lazım olduğu qədər tanıdılmamasından narazıdır. Kult.az-a açıqlamasında T.Əmiraslanov bildirib ki, ölkələr dünyada milli mətbəxlərinə görə tanınır: "Sizə deyim ki, Türkiyə həm də dünyada elə öz mətbəxinə görə tanındı. Bu, birmənalı təbliğatla bağlıdır. Konkret olaraq ekspansiv təbliğat

lazımdır. Məsələn, Fransa, İtaliya bunu edir. Yunanıstanda, İtaliyanın özündə bir ildə 600-ə yaxın mətbəx festivalı keçirilir. Dünyanın harasına getsəniz, türk mətbəxini də görə bilərsiniz. Təbliğat başqa necə olur ki? Məsələn, Əminə Ərdoğan "Türk mətbəxi" adında kitab çap edir. Bundan böyük təbliğat varmı? Bizdə bununla bağlı işlər görülüb, amma bilinən və bilinməyən səbəblərdən yarımçıq qalıb. Heydər Əliyevin 2000-ci ildə bununla bağlı 596 nömrəli sərəncamı var idi. Orada xarici ölkələrin böyük şəhərlərində Azərbaycan mətbəxi, restoran şəbəkələrinin yaranması ilə əlaqədar bir bənd var idi. Amma bunu həyata keçirmədilər. Hətta hansı ölkəyə getsəniz, elə qardaş Türkiyədə də, "erməni mətbəxi" görəcəksiniz. Halbuki o mətbəxin ermənilərə aidiyyəti yoxdur. Neçə ildir, ermənilərin yemək iddiaları ilə bağlı bir cavab kitabı belə çıxmır. Niyə? Axı dövlət bu agentliyi həm də bundan ötrü yaradıb". Ekspert bildirib ki, bunun bir günahı da azərbaycanlıların özündədir: "Azərbaycanlılar xaricə gedəndə Azərbaycan mətbəxini az axtarırlar. Xaricdə görsələr ki, hər gələn bu mətbəxi axtarır, tələbat var, mütləq Azərbaycan yeməklərini də menyularına daxil edərlər".

**İqtisadçı Fuad İbrahimov "Sherg.az"a açıqlamasında baş aşpazın iradları ilə qismən razılaşdığını bildirdi:**

- Azərbaycanın həm də milli mətbəximizlə tanıdılması istiqsamətində heç bir iş görülmür, söyləmək də olmaz. İş aparılır, amma ola bilsin ki, bu, gərəkən səviyyədə deyil. Özünüz bildirdiniz ki, Almaniyanın Ştutqart şəhərində keçirilən "IKA – Dünya Kulinariya Olimpiadası"nda Azərbaycanın aşpazlar komandası mükafata layiq görülüb. Müxtəlif vaxtlarda, müxtəlif ölkələrdə Azərbaycan mətbəxinin təbliğ olunduğunu görürük. Azərbaycanın qastroturizm imkanları Londonda keçirilən "National Geographic Traveller" kulinariya festivalında təbliğ edilmişdi. Festivalda milli mətbəx irsi, Azərbaycana məxsus çay mədəniyyəti, milli şirniyyatlar təqdim edilmişdi. Qonaqlar milli kulinariya nümunələrindən, Azərbaycan şərablarından dadmaq imkanı əldə etmişdilər. Tədbir çərçivəsində "Çay mərasimi", "Düyü və zəfəran" masterklasları, Azərbaycan şərablarının dequstasiyası mərasimləri keçirilmişdi. Kanadanın Alberta əyalətində fəaliyyət göstərən Azərbaycan, Türkiyə, Livan, Misir, Pakistan icmasının nümayəndələri Kalqari şəhərində iftar süfrəsində bir araya gəliblər. Qonaqlara Azərbaycan və türk mətbəxinə xas olan ləziz təamlar, şirniyyatlar, kəklikotu çayı təqdim edilib. Sonra Monreal şəhərində yerləşən Con Abot Kollecində keçirilən və 40-a yaxın ölkənin iştirak etdiyi multikultural festivalda Azərbaycan da təmsil olunub. Azərbaycan guşəsində ölkəmizin tarixi abidələrini əks etdirən suvenirlərlə yanaşı, milli-mədəni irsimizə aid nümunələr, o cümlədən milli kulinariyamıza xas yemək və şirniyyatlar tədbir iştirakçılarına təqdim olunub. Bu tədbirlərdə diaspora nümayəndələrimiz fəallıq göstərirlər və ölkəmizin tanınmasına və təbliğinə töhfə verirlər. Amma əlbəttə ki, daha çox iş görülməlidir. Milli mətbəx təkcə xarici ölkələrdə təbliğ olunmamalıdır. Ölkə daxilində də buna çox ehtiyac var. Xarici ölkələrdə keçirilən tədbirlərə deyək ki, 100-200 nəfər qatılırsa, onun 2-3 qatı bura – Azərbaycana turist olaraq gəlir. Əgər burada turistlərə italyan, fransız, koreya, yapon mətbəxi daha çox təklif ediləcəksə, bu insanlarda Azərbaycan milli mətbəxinin kasadlığı haqqında yanlış bir təəssürat yaranacaq. Biz hər fürsətdə, hər imkanda ilk növbədə öz milli irsimizi, o cümlədən də milli mətbəximizi təbliğ və təqdim etməliyik. Ölkəmizə gələn qonaqlar restoranlarda milli mətbəximizi sifariş etməlidirlər. Azərbaycan milli mətbəxi həqiqətən də istənilən dünya mətbəxi ilə rəqabət aparmaq gücündədir və biz ölkəmizin tanıdılması üçün təbiətin bizə bəxş etdiyi, xalqımızın da miras qoyduğu nemətlər bolluğundan faydalanmalıyıq.

**Şərq**. - 2024. - 17 aprel. - № 65. - S. 6.